# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTİ

# Gender Bərabərliyi Siyasəti

**Məqsəd**

Azərbaycan Texniki Universiteti (AzTU) gender bərabərliyini universitetin əsas dəyərlərindən biri kimi qəbul edir və bütün əməkdaşlar üçün bərabər imkanların təmin edilməsini öhdəsinə götürür. Bu siyasətin məqsədi universitetin fəaliyyətinin bütün istiqamətlərində — idarəetmədə, kadr siyasətində, tədrisdə, elmi tədqiqatlarda və sosial mühitdə — gender bərabərliyini təşviq etmək və sistemli şəkildə təmin etməkdir.

**2. Əhatə dairəsi**

Bu siyasət bütün əməkdaşlara (akademik, inzibati, tədris köməkçi və xidmət heyətinə şamil olunur:

**3. Hüquqi əsaslar**

- Azərbaycan Respublikasının Konstitusiyası;
- "Gender (kişi və qadınların bərabər hüquq və imkanlarının təminatları haqqında)" Qanun;
- Azərbaycan Respublikasının Əmək Məcəlləsi;
- BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyası (CEDAW);
- AzTU-nun Nizamnaməsi və Daxili nizam-intizam qaydalarına.

**4. Prinsiplər**

- Bərabər münasibət — bütün şəxslərə cinsindən asılı olmayaraq bərabər şərait və imkanların yaradılması;
- Ədalət və şəffaflıq — qərarların qəbulunda və resursların bölüşdürülməsində şəffaf və ədalətli mexanizmlərin tətbiqi;
- Zorakılığa qarşı sıfır tolerantlıq — hər növ cinsi ayrı-seçkilik, təcavüz və mobbinq hallarının qarşısının alınması;

- İnklüziv mühit — tədris və iş mühitinin bütün fərdlər üçün əlçatan və hörmətə əsaslanan olması;
- Məsuliyyət və hesabatlılıq — hər bir strukturun və rəhbərin gender bərabərliyinə riayət olunmasına görə məsuliyyət daşıması.

**5. Siyasətin məqsədləri**

- Qadın və kişilərin karyera inkişafında bərabər imkanlarını təmin etmək;
- Qadınların rəhbər vəzifələrdə təmsilçiliyini artırmaq;
- Tədris və tədqiqatlarda gender yanaşmasını inteqrasiya etmək;
- İş və ailə həyatının balanslaşdırılmasına dəstək vermək;
- Zorakılıq və ayrı-seçkilik halları üçün effektiv şikayət mexanizmi yaratmaq;
- Gender bərabərliyi mövzusunda maarifləndirmə və təlimləri genişləndirmək.

**6. Təşkilati mexanizmlər**

- Hər fakültə və struktur bölmədə "Gender əlaqələndiricisi" təyin edilir;
- İnsan resursları idarəedilməsi departamenti tərəfindən illik gender hesabatı hazırlanır;
- Təlim platforması tərəfindən əməkdaşlar üçün gender və inklüzivlik təlimləri keçirilir.

**7. Müraciət və şikayət mexanizmi**

Əməkdaşlar gender ayrı-seçkiliyi, təzyiq və ya zorakılıq halları ilə rastlaşdıqda yazılı və ya elektron formada İRİE Departamentinə və Etika Komitəsinə müraciət edə bilər. Müraciətlər gizli və obyektiv şəkildə araşdırılır. Təsdiqlənmiş hallar üzrə intizam tədbirləri Əmək Məcəlləsinə və AzTU-nun daxili qaydalarına əsasən tətbiq olunur.

**8. Monitorinq və qiymətləndirmə**

Siyasətin icrasına İnsan Resursları Departamenti məsuldur. İllik hesabat Rektorluğa təqdim olunur və Gender Bərabərliyi üzrə Fəaliyyət Planı ilə uzlaşdırılır. Hər iki ildən bir siyasət yenidən nəzərdən keçirilir və təkmilləşdirilir.

**9. Yekun müddəalar**

Bu siyasət təsdiq edilib və qüvvəyə mindiyi tarixdən etibarən AzTU-nun bütün struktur bölmələri üçün məcburidir. Siyasətin pozulması halları intizam məsuliyyəti yaradır və İntizam komissiyası tərəfindən araşdırılır.

**Hazırlayıb:** Nuranə Namazova

Qiymətləndirmə mütəxəssisi

_____________________ imza

**Razılaşdırılıb :** Aytən Şıxaliyeva

İnsan resurslarının idarəedilməsi

departamentinin müdiri

_____________________ imza